BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2008*

# EKOLOJİ TƏHLÜKƏSİZLİK PRİNSİPİ VƏ ƏTRAF MÜHİTİN BEYNƏLXALQ-HÜQUQİ MÜHAFİZƏSİ MƏSƏLƏLƏRİ

**A.A.MƏHƏRRƏMOV**
*Bakı Dövlət Universiteti*

Məlumdur ki, ətraf mühitin beynəlxalq hüquqi tənzimlənməsinin obyektini dövlətlər arasındakı təbii mühitdən istifadə və onun mühafizəsi təşkil edir. Beynəlxalq hüquq ədəbiyyatlarında ətraf mühitin beynəlxalq hüquqi mühafizəsinin 4 əsas predmet sahəsi fərqləndirilir: ətraf mühitə zərərli təsirlərin məhdudlaşdırılması; təbii ehtiyatlardan istifadənin ekoloji məqsədəuyğun rejiminin müəyyən edilməsi; təbii abidələrin və qoruqların beynəlxalq mühafizəsinin müəyyən edilməsi və həyata keçirilməsi; ətraf mühit üzrə dövlətlərin elmi-texniki əməkdaşlığının təmin edilməsi.

Ətraf mühitin beynəlxalq hüquqi mühafizəsinin xarakterik xüsusiyyətlərindən biri də onun inkişaf xüsusiyyətidir. Təbiəti mühafizə normaları demək olar ki, praktik olaraq son on illərdə işlənib hazırlanmışdır. Bu dövrdə əhəmiyyətli həcmdə normativ materiallar qəbul edilmişdir. Belə ki, ətraf mühitin beynəlxalq hüquqi mühafizəsi normativ material həcminə görə beynəlxalq ümumi hüququn tərkib hissələri olan beynəlxalq dəniz hüququ, beynəlxalq hava hüququ, beynəlxalq kosmos hüququ və s. sahələrdən geri qalmır.

Ətraf mühitin beynəlxalq hüquqi mühafizəsinin yaradılmasının ilkin dövrləri yeni sahələr yaratmaq prosesindən fərqli olaraq xaotik xarakterli idi. Bu növ normalar artıq mövcud olan sahələr çərçivəsində yaranırdı və onların tənzimetmə sferası müəyyən dərəcədə ətraf mühit problemi ilə məhdudlaşdırılırdı. Belə ki, ətraf mühit hüququ, ümumiyyətlə, təbii ehtiyatlardan istifadəni tənzim edən hüquq sahələri ilə bağlı nəzərdə tutulurdu. Belə bir xüsusiyyətin də ətraf mühit hüququnun ayrıca, müstəqil bir sahə kimi formalaşması məsələsinə təsiri az olmamışdır. Çünki ətraf mühitin beynəlxalq hüquqi mühafizəsinin müstəqil hüquq sahəsi kimi ayrılmasının, göstərilməsinin əleyhdarları belə bir arqumentə əsaslanırdılar ki, bir çox təbiəti mühafizə normaları artıq mövcud olan hüquq sahələrinin tərkibindədir. İkinci bir arqument kimi onlar bu sahədə vahid sistemləşdirilmiş hüquqi normativ aktın olmamasını əsas götürürdülər. Artıq göründüyü kimi, qeyd edilənlər kifayət qədər köhnəlmişdir.

Beləliklə, ətraf mühitin beynəlxalq hüquqi mühafizəsinin predmetinə ətraf mühitin mühafizəsi ilə bağlı münasibətlərlə yanaşı, təbii ehtiyatlardan istifadə ilə bağlı münasibətlər də daxildir. İstər daxili (milli), istərsə də beynəlxalq hüquqi sistemdə təbiəti mühafizə normaları, təbii ehtiyatlardan istifadə edilməsi ilə bağlı yaradılmış və bununla paralel olaraq təbiəti mühafizə ilə bağlı normalar fəaliyyət göstərmişdir.

Beləliklə, ətraf mühitin beynəlxalq hüquqi mühafizəsi – indiki və gələcək nəsillərin daha əlverişli həyat şəraitini təmin etmək məqsədilə ətraf

mühitin ayrı-ayrı elementlərindən səmərəli istifadə etmək və onları zərərli təsirlərdən qorumaqla bağlı beynəlxalq hüququn subyektləri arasında yaranan münasibətləri tənzim edən beynəlxalq hüquq normaları və prinsiplərinin məcmuudur (16, s. 21-22).

Ümumiyyətlə, ətraf mühitin mühafizəsinə anlayış verilərkən müxtəlif fikir və mövqelər diqqəti cəlb etməkdədir. Məsələ ondadır ki, eyniməzmunlu müxtəlif terminlərlə yanaşı, müxtəlifməzmunlu terminlərdən də istifadə edilir. Bu zaman təbiətə cəmiyyətin və insanın təsir istiqamətlərinin rəngarəngliyi həlledici rolda verilir. Əsasən «insan mühiti», «ətraf mühit», «təbii mühit» və s. kimi terminlər üçün yenə də ümumi məzmun insanı əhatə edən ətraf mühit anlamı həlledici olur. Bu da onunla bağlıdır ki, müdafiə olunmalı təbiətin problemi elə insanın, cəmiyyətin özünün problemidir (15, s. 47).

Ətraf mühitin mühafizəsi müvafiq olaraq transsərhəd problemləri meydana gətirdiyindən bu məsələ eyni zamanda beynəlxalq hüququn tənzimetmə obyektinə daxil olub. Bir tərəfdən dövlətdaxili qanunvericilik, digər tərəfdən isə beynəlxalq hüquq həmin ictimai münasibətləri özünün tənzimetmə obyektinə daxil etdiyi üçün həm normativ materialda, həm də doktrinada ətraf mühitin mühafizəsinin anlayışı xüsusi maraq doğurur. Ətraf mühitin beynəlxalq hüquqi müdafiəsi müasir beynəlxalq əməkdaşlığın bir formasını təşkil edir. Bu sahədə kifayət qədər beynəlxalq hüquqi aktların qəbulu beynəlxalq qanunvericilik çərçivəsində yeni bir müstəqil sahəni özündə beynəlxalq hüquqi sənədləri birləşdirən ekologiya qanunvericiliyini formalaşdırır (1, s. 6). Ümumiyyətlə, beynəlxalq hüquqşünaslar artıq beynəlxalq ekologiya və ya ətraf mühitin beynəlxalq hüquqi mühafizəsi sahəsinin bərqərar olmasını birmənalı qeyd etməkdədirlər. D.Feldman qeyd edir ki, ətraf mühit hüququ yalnız prinsip və normaların məcmuu olmayıb, həm də beynəlxalq hüququn müstəqil sahəsidir (17).

Bir sıra alim isə ətraf mühitin beynəlxalq hüquqi mühafizəsini formalaşmaqda olan beynəlxalq hüquq sahəsi kimi qiymətləndirir (9, s. 229).

Ətraf mühitin beynəlxalq hüquqi mühafizəsi və yaxud da beynəlxalq ətraf mühit hüququ müasir beynəlxalq hüququn dinamik inkişafda olan bir sahəsidir. Professor K.A.Bekyaşev ətraf mühitin beynəlxalq hüquqi mühafizəsini beynəlxalq ekologiya hüququ kimi qeyd edərək, onu ətraf mühitin çirklənmədən mühafizəsinə və təbii ehtiyatların rasional istifadəsinin təkmilləşməsinə yönəlmiş norma və prinsiplərin məcmuu kimi qəbul edir (3, s. 181). Professor Q.V.İqnatenko bu anlayışda insan-ətraf mühit faktorunu qeyd edərək ətraf mühitin beynəlxalq hüquqi mühafizəsini ekosistemdə bəşəriyyətin əlverişli fəaliyyəti üçün, ətraf mühitin qorunması və ondan məqsədli istifadə sahəsində dövlətlərin əməkdaşlığını reqlamentləşdirən beynəlxalq hüquq prinsip və normalarının məcmuu kimi təqdim edir (7, s. 382).

Terminoloji baxımdan «ekologiya hüququ» ilə «ətraf mühitin beynəlxalq hüququ» arasında fərq qoymayan professor İ.İ.Lukaşuk beynəlxalq ekologiya hüququnu ətraf mühitin mühafizəsi və onun ehtiyatlarının rasional istifadəsi sahəsində müvafiq subyektlərin münasibətlərini tənzim edən beynəlxalq-hüquqi prinsip və normalarının məcmuu kimi qeyd edir (14, s. 154). Qeyd etmək yerinə düşər ki, ətraf mühit hüququ ekologiya hüququndan daha geniş məzmun kəsb edir. Belə ki, bu zaman

hüquqi tənzimetmənin predmetinə ekosistemlərlə yanaşı, iqtisadi-təsərrüfat fəaliyyəti də daxil edilir. O da qeyd edilməlidir ki, ekosistemin qorunması üçün şübhəsiz ki, biosferə antropogen təsir də hüquq normaları çərçivəsində tənzimlənməlidir. Bu mənada ətraf mühitin beynəlxalq hüquqi mühafizəsi termini daha məqbul sayılmalıdır.

M.M.Brinçukun mövqeyinə görə ətraf mühitin beynəlxalq hüquqi mühafizəsinin tənzimetmə obyektini indiki və gələcək nəsillərin maraqları naminə yerin və qlobal ətraf mühitin zərərli təsirlərindən mühafizəsi, təbii ehtiyatların rasional istifadəsində yaranan münasibətlərin davranış qaydaları təşkil edir (2, s. 633). Müasir beynəlxalq ekologiya hüququnun inkişafında müxtəlif dövlətlər arasında siyasi, iqtisadi, nəqliyyat, informasiya, kosmik və başqa beynəlxalq əlaqələrin olması həlledici əhəmiyyət kəsb edir (5, s. 550). Ətraf mühitin beynəlxalq hüquqi mühafizəsi öz növbəsində təbii ehtiyatlardan istifadəni tənzimləmək və təbiətə dəyə biləcək hər növ zərərli təsiri aradan qaldırmaq istiqamətində müəyyən funksional təyinata malikdir. Burada ilk fəaliyyət hüquq sahəsi kimi norma yaradıcılığı istiqamətində həyata keçirilir. Eyni zamanda ətraf mühitin beynəlxalq hüquqi mühafizəsi tənzimetmə obyektinə qarşılıqlı məsləhətləşmə, təbii mühitin monitorinqi və təbiətin vəziyyətinə nəzarət, bu sahədə beynəlxalq hüquq prinsip və normalarının pozulmasına görə beynəlxalq məsuliyyət tədbirlərinin tətbiqi və s. məsələlər daxildir.

XX əsrin 70-ci illərindən başlayaraq beynəlxalq ətraf mühit hüququ və beynəlxalq ekoloji təhlükəsizlik hüququ intensiv formalaşma mərhələsini keçərək beynəlxalq hüququn nisbətən yeni sahələrinə aid edilmişdir. Qeyd etmək lazımdır ki, bu sahənin digər, məsələn, dəniz hüququ, kosmos hüququ və s. sahələrlə yaxınlığı və əlaqəsinə baxmayaraq, o tamamilə müstəqil və öz tənzimlənmə predmetinə malik olan bir sahə kimi formalaşmışdır. Belə ki, məsələn, O.S.Kolbasov qeyd edirdi ki, bu gün ətraf mühit hüququ bütün dünyada həyatın özü tərəfindən irəli çəkilmiş beynəlxalq hüququn yeni formalaşmaqda olan müstəqil sahəsidir (12, s. 220).

Bəziləri onun «təbiətin beynəlxalq-hüquqi mühafizəsi», «ətraf mühitin beynəlxalq-hüquqi mühafizəsi», «beynəlxalq təbiəti qoruma (ekoloji) hüququ», «beynəlxalq ətraf mühit hüququ», bəziləri isə, məsələn, M.N.Kopılov və E.Y.Kuzmenko onun «beynəlxalq ekoloji hüquq» kimi səslənməsinə üstünlük verirdilər (8). Belə ki, adı çəkilən müəlliflər beynəlxalq hüququn bu sahəsini beynəlxalq ekoloji hüququn əlaməti kimi, məhz ictimai münasibətlərin spesifik dairəsi; bu münasibətləri tənzimləyən spesifik normalar; ictimai münasibətlər dairəsinin kifayət qədər əhəmiyyətliliyi; normativ-hüquqi materialın kifayət qədər geniş həcmi, yeni hüquq sahəsinin nəzərə çarpdırılmasında ictimaiyyətin marağı, yeni hüquq sahəsinin yaranmasını tənzimləyən hüququn xüsusi prinsipləri kimi nəzərə çarpdırırlar.

Bu sahənin müxtəlif cür səslənməsinin fərqinə varmayaraq, qeyd edək ki, beynəlxalq ətraf mühit hüququnun anlayışı və mahiyyətinin müəyyən olunmasında da bəzi fərqliliklər mövcuddur. Bir sıra müəlliflər, məsələn, A.S.Timoşenko onu beynəlxalq hüquq sisteminin spesifik sahəsi olaraq subyektlərini, ilk növbədə, dövlətlərin müxtəlif mənbələrdən ətraf mühitə vurulan ziyanının qarşısını almaq, onları məhdudlaşdırmaq və aradan qaldırmaq, habelə təbii ehtiyatlardan rasional, ekoloji

cəhətdən əsaslandırılmış şəkildə istifadə üzrə fəaliyyətini tənzim edən beynəlxalq hüquq normaları və prinsiplərinin məcmuu kimi (17, s. 283), S.V.Vinoqradov indiki və gələcək nəsillərin rifahı naminə ətraf mühit və təbii resursların rasional istifadəsi üzrə onun subyektlərinin münasibətlərini tənzimləyən prinsip və normalar sistemi (4, s. 442), A.V.Kukuşkina indiki və gələcək nəsillər naminə yerdə həyatın əlverişli şəraitinin saxlanması və təbii resursların ekoloji əsaslanmış rasional istifadəsi üzrə subyektlərinin fəaliyyətini tənzimləyən prinsip və normalar sistemi (13, s. 597), M.M.Brinçuk indiki və gələcək nəsillərin maraqları naminə qlobal ətraf mühitin zərərli təsirlərdən qorunması və yerin təbii resurslarının rasional istifadəsinin təmin olunması üzrə onun subyektləri arasındakı münasibətləri tənzimləyən beynəlxalq-hüquqi normaların məcmuu kimi xarakterizə etmişlər.

Beynəlxalq təbiəti mühafizə hüquq normalarının daxili məzmun vahidliyi əsasında müəyyən bir qrupda birləşdirilməsi hələ əvvəllər də qeyd edilirdi. Hələ keçən əsrin 70-ci illərində V.A.Çiçvarin göstərirdi ki, təbiətin beynəlxalq hüquqi mühafizəsi nəinki müəyyən prinsip və normaların məcmuudur, həm də beynəlxalq hüququn ayrıca elm sahəsidir (18, s. 36).

Müasir beynəlxalq hüquq nəzəriyyəsi ətraf mühitin mühafizəsini tənzim edən beynəlxalq hüquq normalarının məcmusunu ayrıca beynəlxalq hüquq sahəsi kimi tanıyır. D.İ.Feldman «Beynəlxalq hüququn sistemi» adlı monoqrafiyasında ətraf mühitin beynəlxalq hüquqi mühafizəsini müstəqil hüquq sahəsi kimi beynəlxalq hüququn sisteminə aid edir. Çexoslovakiya hüquqşünası Y.Azud göstərir ki, kosmos, atom hüququ kimi beynəlxalq ətraf mühit hüququ da elmi-texniki inqilabın təsiri ilə yaranan yeni beynəlxalq hüquq sahəsidir. 1985-ci ildə Haaqada Beynəlxalq Hüquq Akademiyası tərəfindən keçirilmiş «Gələcək beynəlxalq ətraf mühit hüququ» mövzusunda simpozium sənədlərində digər məsələlərlə yanaşı, beynəlxalq ətraf mühit hüququnun da sahəvi xarakteri göstərilmişdir və o, beynəlxalq hüququ məsələlərin həlli kimi beynəlxalq hüququn tərkib hissəsi hesab edilir.

Göründüyü kimi, bir sıra müəlliflər beynəlxalq ətraf mühit hüququnu beynəlxalq-hüquqi norma və prinsiplərin məcmuu, digərləri isə beynəlxalq-hüquqi norma və prinsiplərin sistemi kimi göstərmişlər. Lakin hər iki termin – sistem və məcmu bəzi hallarda sinonim sözlər kimi qeyd edilir və formullarda nüansların fərqliliyi beynəlxalq ətraf mühit hüququnun və müvafiq olaraq onun prinsiplərinin yeniliyi və formalaşmasını sübut edir.

Beynəlxalq ətraf mühit hüququnun prinsipləri – beynəlxalq ətraf mühit hüququnun müddəalarının təcrübəsində, o cümlədən müvafiq beynəlxalq-hüquqi normaların inkişafı və işlənib hazırlanmasını həyata keçirən institutların qarşılıqlı əlaqəsi çərçivəsində əsas istiqamətlər, koordinat sistemdir.

Ətraf mühitin beynəlxalq-hüquqi mühafizəsi məsələləri beynəlxalq ətraf mühit hüququnun fəaliyyət göstərən iki mənbəyi («möhkəm», yəni məcburi hüquq və «yumşaq», yəni tövsiyə xarakterli hüquq) ilə tənzimlənir.

Möhkəm hüquq normaları qüvvədə olan hüquqi prinsip və normaların daşıyıcıları sayılır və sözün həqiqi mənasında məcburi hüquq yaradır. Tövsiyə xarakterli normalar isə qeyri-məcburi və ya tövsiyə xarak-

terli qaydaları əhatə edən, laкin beynəlxalq münasibətlərə əhəmiyyətli təsir göstərən qaydalar, yəni yumşaq hüquq yaradırlar.

Möhкəm hüquq normalarına beynəlxalq ətraf mühit hüququnun XX əsrin 70-90-cı illərində qəbul olunmuş bir sıra mənbələri, xüsusən: Ümumdünya mədəni və təbii irsin qorunması haqqında Konvensiya (1972); Tüкənmə təhlüкəsi altında olan vəhşi fauna və flora növlərilə beynəlxalq ticarət haqqında Konvensiya (1973); Qütb (ağ) ayıların mühafizəsi haqqında Saziş (1973); Aralıq dənizinin çirкlənmədən mühafizəsi haqqında Konvensiya (1976); Uzaq məsafədən havanın transsərhəd çirкləndirilməsi haqqında Konvensiya (1979); Ozon qatının mühafizəsi haqqında Vyana Konvensiyası (1985); Ozon qatını dağıdan maddələr üzrə Monreal Protoкolu (1987); Sənaye qəzalarına transsərhəd təsir haqqında Konvensiya (1992); Transsərhəd su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında Konvensiya (1992); Baltiк dənizi rayonunun dəniz mühitinin mühafizəsi haqqında Konvensiya (1992); Qara dənizin çirкlənmədən qorunması haqqında 1992-ci il Konvensiyası (Buxarest Konvensiyası) və s. aiddir.

Bu кateqoriyaya eyni zamanda BMT-nin İqlim dəyişmələri üzrə 1992-ci il Çərçivə Konvensiyasının Kioto Protoкolu aid edilir. Bu Protoкol кlimatoloji, eкoloji və siyasi problemlərin, deməк olar кi, üstündən xətt çəкdi. İqlimin qlobal dəyişiкliyinin sivil bəşəriyyət üçün aкtual mövzuya çevrildiyini hələ Yer Sammitində (və ya «Ümumdünya Sammiti (2002), Yohanesburq) dərк edən dünya dövlətləri onu yeddi il müddətinə ratifiкasiya etmişlər. Dövlətlərin Kioto Protoкolu üzrə götürdüyü öhdəliкlərin yerinə yetirilməsi nəinкi parniк effeкtinin, həm də ümumiliкdə atmosferə antropogen təsirin azaldılmasına кöməк edəcəк кi, bu da öz növbəsində Yer atmosferinin sağlamlaşdırılması, təbii кataкlizmlərin azalması və ləğv edilməsinə gətirib çıxaracaq (11, s. 137).

Yumşaq hüquq mənbələrinə İnsanı əhatə edən mühitə dair BMT Konfransının prinsiplərinin Stoкholm Bəyannaməsi (1972), Ümumdünya Təbiəti Mühafizə Strategiyası (1980), Ümumdünya Təbiəti Mühafizə Xartiyası (1982), Ətraf mühit və inкişaf üzrə Rio Prinsipləri Bəyannaməsi (1992) və s. aid oluna bilər. Bu sənədlər beynəlxalq ictimaiyyətdə münasibətlərin birbaşa tənzimlənmə mexanizmi sayılmırlar, laкin beynəlxalq ətraf mühit hüququnun prinsipləri əsasında təbiətdən istifadə və ətraf mühitin mühafizəsi sahəsində nəinкi dövlətlərin, hətta beynəlxalq təşкilatların fəaliyyətinin aкtivliyinə кöməк edən tövsiyələri özündə saxlayırlar.

Beləliкlə, ətraf muhit hüququna dövlətlərarası ünsiyyətdə imperativ və universal xaraкter daşıyan beynəlxalq hüququn ümumtanınmış prinsipləri tətbiq olunur. Bunlarla birliкdə beynəlxalq ətraf mühit hüququnun sahəvi (xüsusi) prinsipləri də tətbiq olunur. Ətraf muhit və iniкşafa dair 26 prinsipi özündə təsbit edən Stoкholm Bəyannaməsindən (1972) fərqli olaraq Rio-de-Janeyro Bəyannaməsində (1992) 27 prinsip təsbit edilmişdir. Bu prinsiplərin bir hissəsi müasir beynəlxalq hüququn fundamental prinsipləri, xüsusən, dövlət suverenliyinə hörmət, dövlətlərin bərabər suverenliyi, dövlətlərin bir-birinin daxili işinə qarışmaması, ərazi bütövlüyü və toxunulmazlıq, yaranan mübahisəli məsələlərin sülh yolu ilə həlli və s. sayılırlar.

Bəzi müəlliflər ətraf mühitə dair xüsusi prinsipləri də ayırırlar. Məsələn, N.S.İvançenкo qeyd edirdi кi, ətraf mühitin mühafizəsi prinsi-

pi beynəlxalq hüququn əsas prinsiplərinə aid edilə bilər, belə ki, bu prinsip beynəlxalq ünsiyyət iştirakçılarına yönələn təbii resursların optimal istifadəsi üzrə ətraf mühitin qorunması, bərpası, yeniləşməsinə dair razılaşdırılmış ölçülərin ciddi əməl edilməsi üzrə imperativ hüquqi tələbləri ifadə edir (6, s. 72-73).

Stokholm və Rio-de-Janeyro bəyannamələrində təsbit olunmuş prinsiplərin analizi əsasında N.M.Kopılov transsərhəd zərərin yolverilməzliyi; təbii resursların ekoloji əsaslandırılmış rasonal istifadəsi; Dünya okeanının ekoloji sisteminin mühafizəsi, radioaktiv maddələrin istifadəsi zamanı həm sülh, həm də hərbi sahələrə yayılan ətraf mühitin radioaktiv zərərinin yolverilməzliyi; ətraf mühitə hərbi və ya düşməncəsinə təsirin qadağan edilməsi; ekoloji təhlükəsizliyin təmin edilməsi; ətraf mühitə edilən ziyana görə dövlətlərin beynəlxalq-hüquqi məsuliyyəti kimi prinsipləri xüsusi ayırmışdır (10, s. 15).

Bu istiqamətdə mühüm elementlərdən biri də ekoloji təhlükəsizliyin spesifik xüsusiyyətlərinin təhlilidir. Ekoloji təhlükəsizlik ekoloji qarşılıqlı əlaqəli və qarşılıqlı şərtlənmiş faktorların (yəni ətraf mühitdə obyektiv mövcud olan faktorlar, o cümlədən aralarında təbii balansın qorunması və saxlanması üzrə insan fəaliyyəti) mürəkkəb sistemini təşkil edir (13, s. 609). Ekoloji təhlükəsizlik prinsipi: bəşəriyyətin sıxışdırılması şərti kimi ekospazmanın yolverilməzliyi; ekoloji və beynəlxalq təhlükəsizlik arasında birbaşa və bilavasitə əlaqə; tərksilah məsələlərini daxil etməklə beynəlxalq təhlükəsizliyin təmin olunması ilə təbii resurslardan rasional istifadə, ətraf mühitin mühafizəsi, qorunması arasında əlaqəni nəzərdə tutur. Ekoloji təhlükəsizlik prinsipinin hüquqi məzmunu – istənilən fəaliyyəti həyata keçirərkən yerli və ya qlobal səviyyədə ekoloji stresslərin artan təsirinin aradan qaldırılması üzrə dövlətlərin təkcə başqa dövlətlərə deyil, ümumilikdə, beynəlxalq cəmiyyətə zərər yetirməmək prinsipindən çıxış edən öhdəliyidir (13, s. 609). Ətraf mühitin prinsiplərinə dair müxtəlif nöqteyi-nəzərləri ümumiləşdirdikdə bu prinsipləri qrup halında belə təqdim etmək olar:

1. İnsanın ekoloji hüquqlarına riayət edilməsi prinsipi: hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ; sosial-iqtisadi inkşaf prosesində insanın ekoloji hüquqlarının prioritetliyinə riayət etmək; indiki və gələcək nəsillər naminə ətraf mühitin mühafizəsi prinsipi.

2. Ətraf mühitin ekoloji əsaslandırılmış tədqiqatı və istifadəsi prinsipi: ətraf mühit və onun komponentlərinin azad tədqiqatı və istifadəsi prinsipi; dünya okeanının ekoloji sistemlərinin mühafizəsi prinsipi; yerin təki, dünya okeanı və yerətrafı kosmik fəzanı daxil etməklə ətraf mühitin dinc məqsədlərlə istifadəsi prinsipi; ətraf mühitin ekoloji əsaslandırılmış rasional istifadəsi prinsipi; dövlətin öz təbii resursları üzərində ayrılmaz suverenliyi; yerli əhalinin bilikləri və ənənəvi təcrübəsinə əsaslanaraq ətraf mühitin regional müdafiəsi prinsipi.

3. Ekoloji təhlükəsizlik və sabit inkişaf prinsipi: ekoloji təhlükəsizlik prinsipi; bərabər (eyni) ekoloji təhlükəsizlik prinsipi; ətraf mühit, sülh, inkişaf, insan hüquqlarının və fundamental azadlıqlarının təminatı prinsiplərinin qarşılıqlı əlaqəsi; təhlükəsizlik baxımından ekoloji inkişaf prinsipi; dövlətlər tərəfindən istehsalatın qeyri-rasional təcrübəsinin məhdudlaşdırılması və müvafiq demoqrafik siyasətin istifadəsi və dəstəklənməsi yolu ilə hər bir insanın sabit inkişaf və yüksək həyat keyfiyyətinin təmin olunması prinsipi; ətraf mühitin sabitliyinə nail olmaq

məqsədilə ekoloji cəhətdən əsaslandırımış sosial və iqtisadi inkişaf prosesinin ayrılmaz hissəsi kimi ətraf mühitin mühafizəsi prinsipi; sabit inkişafın təmin olunması üzrə beynəlxalq əməkdaşlıq çərçivəsində dövlətlər tərəfindən diferensial vəzifələrin yerinə yetirilməsi prinsipi.

4. Ətraf mühitə təsirin və transsərhəd zərərin aradan qaldırılmasının ilkin qiymətləndirilməsi prinsipi: ətraf mühitə transsərhəd zərərinin aradan qaldırılması; ətraf mühitə təsirin ilkin qiymətləndirilməsi prinsipi; planlaşdırılan fəaliyyətin transsərhəd ekoloji nəticələrinin qiymətləndirilməsi prinsipi; dövlətin yurisdiksiyasının hüdudları xaricində ətraf mühitə zərərin yolverilməzliyi prinsipi; öz ərazisi, o cümlədən öz bayrağı altında olan hava və dəniz gəmilərində ehtiyat tədbirlərinin yerinə yetirilməsi prinsipi; ekoloji nəticələri bilinməyən təsərrüfat və digər fəaliyyətin yolverilməzliyi prinsipi.

5. Ətraf mühitin vəziyyəti haqda məlumatlandırma prinsipi: milli və regional səviyyədə beynəlxalq ekoloji məlumatın azad və daimi mübadiləsi prinsipi; qarşılıqlı məsləhətləşmə prinsipi; həm hüquqi, həm də fiziki şəxslərin yaşadıqları regionlarda təhlükəli material və təhlükəli fəaliyyət haqqında məlumatı daxil etməklə ətraf mühitin vəziyyəti haqqında informasiya almaq prinsipi; bütün səviyyələrdə ekoloji nəzarət prinsipi.

6. Ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq prinsipi: insan sağlamlığı üçün təhlükəli sayılan və ya ətraf mühitə ciddi zərər vuran maddələrin və fəaliyyət növlərinin digər dövlətlərə ötürülməməsi məqsədilə əməkdaşlıq prinsipi; daimi əsasda beynəlxalq təbiəti mühafizə əməkdaşlığı prinsipi; zərər çəkmiş dövlətlərə hərtərəfli köməyin edilməsində, təbii və texnogen xarakterli fövqəladə ekoloji vəziyyətlərdə genişmiqyaslı əməkdaşlığın təmin edilməsi prinsipi; ətraf mühitin mühafizəsi və tədqiqatı sahəsində beynəlxalq elmi-texniki əməkdaşlıq prinsipi; Yerin ekosisteminin bütövlüyünün qorunması və mühafizəsi sahəsində əməkdaşlıq prinsipi; ətraf mühitin pisləşməsinə effektiv əks-təsir göstərən və bütün ölkələrdə iqtisadi artım və sabit inkişafa yönələn əlverişli və açıq beynəlxalq iqtisadi sistemin yaradılmasında əməkdaşlıq prinsipi; müxtəlif dünya ölkələri əhalisinin tələbatlarının daha effektiv təmin edilməsi və yüksək həyat səviyyəsinin zəruri şərti kimi yoxsulluğun ləğv edilməsi kimi məsələlərin həllində əməkdaşlıq prinsipi.

7. Ətraf mühitə vurulan zərərə görə dövlətlərin beynəlxalq-hüquqi məsuliyyəti prinsipi; BMT Nizamnaməsinə uyğun olaraq ekoloji-hüquqi mübahisələrin sülh yolu ilə həlli prinsipi; ətraf mühitə vurulan ziyana görə beynəlxalq-hüquqi məsuliyyət prinsipi; ətraf mühitin mühafizəsi üzrə beynəlxalq müqavilələrə riayət edilməsi üzrə nəzarət prinsipi; ictimai maraqları, investisiya üçün əlverişli şərait və beynəlxalq ticarətin təmin olunmasını nəzərə alaraq törətdiyi ziyana görə çirkləndirənin ödəniş aparmaq prinsipi; beynəlxalq ətraf mühit hüququ əsasında və təsərrüfat fəaliyyətinin məqsəd və prioritetlərinə müvafiq olaraq ətraf mühit və ekoloji standartlaşdırma sahəsində milli qanunvericiliyin inkişafı prinsipi.

8. Ətraf mühitə hərbi və ya digər düşməncəsinə məqsədlərlə təsirin qadağan olunması prinsipi: hərbi, siyasi və digər məqsədlər naminə ekoloji aqressiya vasitələrinin qadağan olunması prinsipi; ətraf mühitə həm qısamüddətli, həm də uzunmüddətli nəticələr yaradan təsirin hərbi və ya digər düşməncəsinə istifadəsinin qadağan edilməsi prinsipi; silahlı kon-

fliкtlər yaranan zaman və beynəlxalq humanitar hüquq, beynəlxalq ətraf mühit hüququnun inкişafı sahəsində zəruri əməкdaşlıq, o cümlədən ətraf mühitin mühafizəsinin təmin olunması yolu ilə beynəlxalq hüquqa hörmət prinsipi; radioaкtiv maddələrin həm hərbi, həm də sülh məqsədlərlə istifadəsi zamanı ətraf mühitə radioaкtiv yoluxmanın yolverilməzliyi prinsipi.

9. Beynəlxalq qeyri-höкumət təşкilatlarının (qadın, gənclər təşкilatı) ətraf mühitin mühafizəsində geniş iştiraкı: ətraf mühitin rasional istifadəsinin, sabit iniкşafının nail olunmasında qadınların geniş iştiraкı prinsipi; hər кəsin parlaq gələcəyinin və sabit inкişafının təmin olunması üçün qlobal tərəfdaşlığın formalaşması məqsədilə dünya gənclərinin yaradıcı potensialının zəruri səfərbərliyi prinsipi.

Göstərilən prinsiplər, bütövlüкdə, həm Rio-de-Janeyro bəyannaməsində təsbit olunmuş prinsipləri, həm də hüquqşünas-eкoloqların əməкlərində rast gəlinən prinsipləri əкs etdirmişdir.

Qeyd etməк lazımdır кi, yuxarıda adı çəкilən eкoloji təhlüкəsizliк prinsipi əhəmiyyətinə görə digər prinsiplər arasında xüsusilə seçilir. İstənilən mürəккəb çoxaspeкtli təzahür кimi eкoloji təhlüкəsizliyə müxtəlif mövqelərdən baxmaq olar. Eкoloji təzlüкəsizliyin əhəmiyyətliliyi nəticəsində hətta eкoloji təhlüкəsizliк konsepsiyası yaranmışdır. Eкoloji təhlüкəsizliк hüquqi prinsip və hüquqi institut кimi iкili təbiətə maliкdir, yəni həm beynəlxalq ətraf mühit hüququnda, həm də milli hüquqda mövcuddur, daxili hüquqda milli təhlüкəsizliкlə, beynəlxalq hüquqda beynəlxalq təhlüкəsizliкlə sıx əlaqəlidir. Eкoloji təhlüкəsizliк konsepsiyası ən əvvəl sabit inкişafa кöməк edir. Sabit inкişaf isə beynəlxalq ətraf mühit hüququnun prinsipləri əsasında yalnız dövlətlərin əməкdaşlığı şəraitində mümкündür.

## QEYDLƏR


1. Авраменко И.М. Международное экологическое право в России и за рубежом: Сб. науч. Тр. М.: 2001.
2. Бринчук М.М. Экологическое право. М.: 1999.
3. Бекяшев К.А. Международное публичное право. М.: 1998.
4. Виноградов С.В. Гл. 19. Международное право. /Под ред. Г.И.Тункина. М.: Юридическая литература, 1994.
5. Ерофеев Б.В. Указ.соч. с.550.
6. Иванченко Н.С. Экология и разоружение в системе международной безопасности. СПб., Изд-во СПб университета, 1992.
7. Игнатенко Г.В. Международное право. М.: 1995.
8. Копылов М.Н., Кузьменко Э.Ю. Международное экологическое право: Кодификация и прогрессивное развитие. М.: Изд-во РУДН, 2005.
9. Копылов М.Н. Вклад Международного союза охраны природы и природных ресурсов в кодификацию и прогрессивное развитие международного экологического права. МЖМП. №2. 2003.
10. Копылов М.Н. Право на развитие и экологическая безопасность развивающихся государств (международно-правовые вопросы). Автореф. дисс. док. юрид. наук. М.: 2001.
11. Кокеев М.Е. Киото. Спасти белых медведей // Международная жизнь. 2004, №11-12.
12. Колбасов О.С. Международно-правовая охрана окружающей среды. М.: Международные отношения, 1982.

13. Кукушкина А.В. Гл. 19. Международное право /Под ред. Ю.М.Колосов, Э.С.Кривчиков. М.: Международные отношения, 2000.
14. Лукашук И.И. Международное право. Особ.часть. М.: 1997.
15. Современное экологическое право в России и за рубежом: Сб.науч.тр. М., 2001.
16. Тимошенко А.С. Формирование и развитие международного права окружающей среды. М.: 1986.
17. Фельдман Д.И.
18. Чичварин В.А. Охрана природы и международные отношения. М.: 1970.

## ПРИНЦИП ЭКОЛОГИЧЕСКОЙ БЕЗОПАСНОСТИ И ВОПРОСЫ МЕЖДУНАРОДНО-ПРАВОВОЙ ЗАЩИТЫ ОКРУЖАЮЩЕЙ СРЕДЫ

**А.А.МАГЕРРАМОВ**

### РЕЗЮМЕ

В статье принцип экологической безопасности и вопросы международно-правовой защиты окружающей среды исследуются на основе различных заключений периодической литературы и международной практики. При исследовании важнейших особенностей экологической безопасности, как основной принцип, можно придти к такому выводу, что принцип экологической безопасности и правового института владеют двойной природой. Иначе говоря, они существуют и в международном праве окружающей среды, и национальном праве, а во внутреннем праве национальная безопасность находится в тесной связи с международной безопасностью международного права.

Стабильное развитие возможно лишь в условиях сотрудничества государств, на основе принципов международного права окружающей среды.

## THE PRINCIPLE OF ENVIRONMENTAL SRCURITY AND PROTECTION OF ENVIRONMENT IN INTERNATIONAL LAW

**A.A.MAHARRAMOV**

### SUMMARY

The principle of environmental security and protection of environment in niternational law are discussed in this article based on current diversity of opinion in the books on international law and international practice. While analyzing the main features of the concluded that, the principle of environmental security has dual nature as a legal principle and an institute of law, that is, it exists in both international environmental law and national law and is strongly interrelated with both national security in national law and with international security in international law. On top of everything, the concept of environmental security supports stable development, which is possible only through international cooperation based on the principles of international environmental law.